# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №11 (51) • 16.05.2011


AzadliqRadiosu.az®


**Rüstəm İbrahimbəyov prezidentə açıq məktub göndərib** səh.2

**Bakıdan Dunyaya verilən vədlər** səh.3

«Amnesty International»: **«Hədə-qorxular, təzyiqlər davam edir»** səh.5

**"Шенген" ужесточают** səh.7

**Pul gətirmədiyinə görə şagirdi hədələyiblər** səh.10

**Naxçıvanda motosiklet əməliyyatı** səh.6

**«Facebook» Azərbaycanda banan və xurmaya boykot deyir?** səh.15


## Xarici ekspertlər Azərbaycan və Ermənistan ordularının gücü barədə nə deyir?



səh.8-9

## Европарламент критикует власти Азербайджана

Депутаты Европарламента в принятой на заседании 12 мая резолюции осуждают оба упомянутых случая и критикуют ухудшение ситуации с правами человека в Азербайджане. Также в резолюции власти Азербайджана осуждаются из-за увеличения количеств преследования и запугивания журналистов и политических активистов.

səh.7




**1 nəfər işçisi olan şirkət 854 manatlıq tenderi qazanıb** səh.11

**Azərbaycan "Eurovizion-2011"-nin qalibi oldu** səh.12

**Heç kimin tanımadığı neft şirkətləri Azərbaycanda nə işlə məşğuldur?** səh.10

# Rüstəm İbrahimbəyov prezidentə açıq məktub göndərib



Rüstəm İbrahimbəyov, 7 may 2010

**Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Rüstəm İbrahimbəyov prezident İlham Əliyevə növbəti açıq məktub göndərib. Tanınmış yazıçı, dramaturq və kinorejissor prezidentə məlumat verir ki, mətbuata verdiyi bir müsahibədən sonra rəhbərlik etdiyi Kinematoqrafçılar İttifaqının bütün maliyyə qaynaqları əlindən alınır: "Bu gün həmin yüksək vəzifəli məmurlar respublikadakı ideoloji vəziyyətə təsir göstərməklə köhnə sovet metodları ilə hərəkət edirlər, yəni onların demokratik baxışlardan uzaq olan fikirləri ilə üst-üstə düşməyən istənilən fikri boğurlar. Və bu da fəal çalışan yaradıcı təşkilatın çətin vəziyyətə düşməsinə səbəb oldu.**

Əvvəlcə "Azərbaycan" kinoteatrının özəlləşdirilməsi adı altında Əmlak Məsələləri Dövlət Komitəsi bizi bu yeri icarəyə götürmək hüququndan məhrum etdi. Biz avtomatik olaraq əsas maliyyə mənbəyini itirdik. Sonra "Şərq-Qərb" festivalının dövlət tərəfindən dəstəklənməsi dayandırıldı və nəticədə ölkənin mədəni reputasiyasına zərbə ilə yanaşı İttifaqın iqtisadi durumu da xeyli pisləşdi.

Kinematoqrafçılar İttifaqının Bayıldakı torpağının qanunsuz zəbt olunması ilə bağlı sizə dəfələrlə müraciət etmişəm. Kinematoqrafçılar İttifaqına qarşı gizli iqtisadi müharibənin tərkib hissəsi olaraq Azərbaycan Dövlət Neft Şirkətinin özbaşınalığı bizim təşkilata dağıdıcı zərbə vurdu. Hazırda işə məhkəmələrdə baxılır. Əfsuslar olsun ki, hamıya məlumdur ki, hakimlər itaətkarlıqla "yuxarıların" göstərişlərini yerinə yetirirlər. Odur ki, özəl mülkiyyətin dövlət idarələri tərəfindən zəbt olunması ilə bağlı başqa hallarda olduğu kimi, bizim də işimiz üzrə qərarlar bizim torpağa heç bir hüquqi olmayan Neft Şirkətinin xeyrinə qəbul olunur.

Amma yaxın zamanda vəziyyətimizin yaxşılaşacağı ilə bağlı ümidlərimi itirmirəm. Müasir, sivil, demokratik ölkədə bir qrup insan uzun müddət bu qədər kobud özbaşınalığı davam etdirə bilməz". Rüstəm İbrahimbəyov bundan əvvəl də bir neçə dəfə prezidentə həmin problemlə bağlı müraciət edib. Amma dövlət başçısından heç bir reaksiya olmayıb. Rüstəm İbrahimbəyov dövlət başçısı kimi prezident İlham Əliyevə alternativ görmədiyini deyir. Amma eyni zamanda da cəmiyyətdə bəzi siyasi proseslərə də tənqidi münasibəti var. O, 2008-ci ildə prezidentlik müddətinə məhdudiyyətin ləğvinin əleyhinə olub.

# Vaqif İbrahimoğlu vəfat edib

**Görkəmli rejissor, "Yuğ" Dövlət Teatrının baş rejissoru Vaqif İbrahimoğlu mayın 12-də axşam saatlarında 62 yaşında ağır xəstəlikdən vəfat edib.** Vaqif İbrahimoğlu Azərbaycan Milli Akademik Dram Teatrında, Türkiyənin Ankara və Bursa teatrlarında, Estoniyanın Uqala Teatrında tamaşalar hazırlayıb. 1989-cu ildən bəri "Yuğ" Teatrının rəhbəri olub. Bir neçə dövlət mükafatlarına layiq görülüb. "Yuğ" Teatrında 1989-cu ildən bu günə qədər 90-a yaxın tamaşaya quruluş verib.





Azərbaycan Beynəlxalq Universiteti

# ABU-dan narazılar Prezident Administrasiyasının qarşısına toplaşıb

**Fəaliyyəti dayandırılan Azərbaycan Beynəlxalq Universitetinin (ABU) bir qrup tələbəsi və onların valideynləri mayın 11-də Prezident Administrasiyasının qarşısına toplaşıb. Onlar 2-3 il əvvəl universiteti bitirən tələbələrə diplomların verilməməsindən şikayətlənirlər. 60-a yaxın valideyn prezidentə müraciət imzalayıb və ondan bu məsələyə müdaxilə etməsini istəyirlər.**

- Biz Beynəlxalq Universitetdəki qanunsuzluqlara etiraz edirik. Qızım 3 ildir qurtarıb, diplom almamışıq. Burda camaat da eyni problem yaşayır. Yalandan deyirlər ki, sabah gələrsiniz, olacaq. Nə qədər dözməliyik biz. Verməyəcəksə, bizim pullarımızı qaytarsın. 5 il pul ödəmişik. Bütün sənədlər də üstümüzdədir. Prezidentə və neçə yerə teleqram vurmuşuq.

- Bizim uşaqlarımız ortada qalıb. Qurtaranlara diplom verilmir, yarımçıq qalanların da taleyi məlum deyil. Biz ora 10 minə qədər xərc çəkmişik, təhsil haqqı vermişik, köçürməsi olub, əziyyət çəkmişik. Biz dərdimizi hara deyək, hər dəfə bir yalan söz deyirlər.

Prezident Administrasiyasından isə bildiriblər ki, valideynləri nahardan sonra qəbul edəcəklər. Ötən il Təhsil Nazirliyi ABU-nun fəaliyyətinin dayandırılması barədə qərar qəbul edib. Nazirliyin məlumatına əsasən, universitetdə tədrisinin təşkilində problemlər, qanunsuz tələbə köçürmələri aşkarlanıb.

***Sevinc Hüseynzadə***

# Bakıdan Dunyaya verilən vədlər


Dunya Miyatoviç

**ATƏT-in media azadlığı üzrə nümayəndəsi Dunya Miyatoviç Azərbaycana dördgünlük səfərinin yekunları ilə bağlı mayın 13-də keçirdiyi mətbuat konfransında bildirdi ki, Azərbaycana prezident İlham Əliyevin dəvəti ilə gəlib:**

- Keçən il Astana sammiti zamanı İlham Əliyevlə görüşdüm. O məni Azərbaycana dəvət etdi. Bu dəvətə görə mən ona minnətdarlığımı bildirmək istəyərdim. Burda məni çox mehribanlıqla qarşıladılar.

### «İLHAM ƏLİYEV DEDİ Kİ, AZƏRBAYCANDA İNTERNET AZADDIR»

Azərbaycanın ATƏT-i öz təşkilatı kimi qəbul etdiyi, bu qurumla işləmək istədiyi üçün də prezidentə təşəkkür edən Dunya Miyatoviç İlham Əliyevlə görüşdüyünü və onunla ölkədə media azadlığı ilə bağlı mövcud problemləri müzakirə etdiyini bildirdi:

- İlham Əliyevin internetin Azərbaycanda azad fəaliyyət göstərəcəyi fikrini eşidəndə çox sevindim.

Xarici İşlər naziri Elmar Məmmədyarovla, Daxili İşlər naziri Ramil Usubovla da görüşən Dunya Miyatoviç deyir ki, bu görüşlərdən sonra hökumətin onlarla işləmək istədiyinə onda əminlik yaranıb:

- Amma Azərbaycanda plüralizmin inkişaf etməsi üçün hökumət çox işlər görməlidir. Jurnalistlər təzyiqsiz, qorxu olmadan fəaliyyət göstərmək şəraitinə malik olmalıdır. Mən bu görüşlər zamanı gənclərin həbs olunmasını da müzakirə etdim və bildirdim ki, gənclərin yeni mediadan geniş istifadə etməsinə şərait yaratmalıdır.

Dunya Miyatoviç həbsdə olan jurnalist Eynulla Fətullayevlə də görüşüb. Onun sözlərinə görə, məhbus jurnalist yüksək əhvali-ruhiyyədə olub:

- Mən həbsxananın rəhbərliyi ilə də görüşdüm. Onlarla danışıqlar zamanı həbsxana rəhbərliyi bildirdi ki, Eynulla Fətullayevin təhlükəsizliyi prioritet məsələdir.

### «VERİLƏN VƏDLƏR YERİNƏ YETİRİLMƏSƏ, DÜNYA İCTİMAİYYƏTİNƏ MÜRACİƏT EDƏCƏM»

ATƏT nümayəndəsi hakimiyyət təmsilçiləri ilə görüş zamanı vədlər aldığını söylədi və dedi ki, əgər bunlar yerinə yetirilməsə, mətbuat azadlığı sahəsində vəziyyət yaxşılaşmasa, dərhal dünya ictimaiyyətinə müraciət edəcək.

AzadlıqRadiosunun "konkret hansı vədləri almısız?" sualına Dunya Miyatoviçin cavabı belə oldu ki, o, gənc fəal Cabbar Savalanlının, Eynulla Fətullayevin azadlığa buraxılmasını və «Azadlıq» qəzetinin iki müxbirinə olan təqiblərlə bağlı ölçü götürülməsini gözləyir. Eyni zamanda diffamasiyanın dekriminallaşdırılması ilə bağlı qanun layihəsinin parlamentdə tezliklə qəbul olunacağına da inanır.

### MİYATOVİÇƏ ŞİKAYƏT

Dunya Miyatoviç Milli Teleradio Şurasının sədri Nuşirəvan Məhərrəmli ilə də görüşüb. Jurnalistlərdən biri onun Nuşirəvan Məhərrəmli ilə görüşünə toxunaraq bildirdi ki, onlar dəfələrlə cəhd göstərsələr də, sədrlə görüşə nail ola bilməyiblər. «Siz onunla görüş zamanı xarici radioların FM tezliyində yayımının bərpa olunması ilə bağlı müzakirə apardınızmı?» sualının cavabında Dunya Miyatoviç bildirdi ki, bu məsələnin müzakirəsi zamanı aldığı cavablar onu qane etməyib.

ATƏT nümayəndəsi onu da əlavə elədi ki, Nuşirəvan Məhərrəmli ilə danışacaq ki, jurnalistlərə münasibətini dəyişsin.

Dunya Miyatoviç deyir ki, mətbuat azadlığı ilə bağlı ölkədə görülməli işlər çoxdur və ölkəsinə qayıdan kimi səfəri ilə bağlı daha geniş qiymətləndirmə aparacaq. O, qiymətləndirməsi ilə bağlı hökumətə geniş məktub yazacağını deyir.

# Müsavat Partiyası Sumqayıt təşkilatının qərargahı boşaldılıb

*Polis mayın 15-də Müsavat Partiyası Sumqayıt təşkilatının qərargahına toplaşan müxalifətçiləri çölə çıxarıb. Bu barədə AzadlıqRadiosuna məlumat verən yerli təşkilatın sədr müavini Sərvər Bağırovun sözlərinə görə, polis onlara heç bir izahat vermədən qərargahı boşaltmağı tələb edib.*

Bu gün Sumqayıtda İctimai Palatanın regional şöbəsinin təsis konfransı keçirilməlidir. Konfrans saat 4-ə təyin olunub. Sumqayıtda fəaliyyət göstərən bəzi yerli müxalifət təşkilatlarının rəhbərləri isə polis bölmələrinə çağırılıblar. Sumqayıt Şəhər Polis İdarəsindən AzadlıqRadiosuna faktla bağlı izahat verməyiblər.



# BVF-nin icraçı direktoru zorlamağa cəhddə ittiham olunur

Şənbə günü Nyu-York hava limanında saxlanmış Beynəlxalq Valyuta Fondunun 62 yaşlı icraçı direktoru Dominik Stross Kana (Dominique Strauss-Kahn) qarşı rəsmi ittiham irəli sürülüb. O, bir gecəsi 3 min dollar olan dağ hotellərindən birində çalışan 32 yaşlı qadını zorlamağa cəhddə ittiham olunur. Polis Dominique Strauss Kahnın toxunulmazlıq hüququ olmadığını deyir.

Vəkillərdən birinin dediyinə görə,o ittihamı rədd edir. Strauss Kahn Almaniyanın kansleri Angela Merkellə görüşmək üçün Avropaya gəlmək istəyərkən saxlanıb. O, Avropa Birliyi ölkələri maliyyə nazirlərinin bazar ertəsi Brüsseldə keçiriləcək görüşünə qatılmalıymış. Straus Kahn gələn ilin aprelində Fransada keçiriləcək prezident seçkisində Sosialist Partiyasından mümkün namizəd hesab olunur.

# Maaşlar və pensiyalar nə qədər qaldırıla bilər?


Azər Mehtiyev

**«İşdən sonra» proqramında ekspertlər Azər Mehtiyev və Zöhrab İsmayıl bu suala cavab verməyə çalışırlar.**

Azər Mehtiyev:

- «Ümumiyyətlə, son vaxtlar baş verən artımların həcminə diqqət yetirsək görərik ki, orta hesabla 10-15, ən yüksək halda isə 20 faiz artımdan söhbət gedir. Lakin bu artımın insanların həyatına nə cür təsir etməsi çox önəmlidir. Bu da təbii ki, ilk əvvəl «indiki əməkhaqqı nə qədərdir» sualını doğurur. Təhsil və səhiyyə işçilərinin əməkhaqqı haradasa orta hesabla 100-150 manat civarında dəyişir. İndi bu 100-150 manatı nə qədər artırmaq lazımdır ki, o bugünkü standartlarla insanların ehtiyacını ödəyə bilsin? Sualın mahiyyəti bundan ibarətdir. 150 manatın 15 və ya 20 faiz artması ilə əməkhaqqının 180-190 manat olması o insanların həyatına ciddi təsir etmir».

Zöhrab İsmayıl:

- «İqtisadi artım əməkhaqqını artırmalıdır. Əslində bu əməkhaqlarının artırılması məsələsi adətən dövlət büdcəsindən maliyyələşən bütün təşkilatlara şamil olunmur. Onların bir qisminə şamil olunur. Ancaq bu əməkhaqlarının qaldırılmasından o qədər danışırlar ki, sanki bu, hamıya aiddir. Hökumət gərək diqqətini ona yönəltsin ki, iqtisadi artım digər insanların da əməkhaqqının artmasına şərait yaratsın. Ümumiyyətlə, ölkədə orta əməkhaqqı aşağı səviyyədədir...».

***İlqar Rəsul, Kamran Mahmudov***

# Qadından da lider olarmı?


Əkrəm Əylisli

**«İşdən sonra» proqramında «Qadın Liderliyi Uğrunda» İctimai Birliyin sədri Ülkər Abdullayeva və yazıçı Əkrəm Əylisli qadının cəmiyyətdəki rolundan danışırlar.**

Əkrəm Əylisli:

- «Mən elə bilirəm ki, qadından liderdən başqa da nə desən olar. Yəni qadınlar nə qədər istəyirlərsə, nə istəyirlərsə, onlara hamısını vermək lazımdır. Amma nə qədər istədikləri qədər versən də, axırda bir şey məlum olacaq. Məlum olacaq ki, bunlara bir gözəl-göyçək, mərifətli-qanacaqlı kişi lazımdır».

Ülkər Abdullayeva:

- «Bəlkə də haqlısız, hansısa bir qadının arxasında mütləq bir kişi dayanmalıdır. Ancaq belə bir deyim də var ki, hər ağıllı kişinin arxasında ağıllı qadın dayanır. Qadından lider niyə də olmasın? Dünya təcrübəsində kifayət qədər lider olan və bir çox kişilərdən də daha yaxşı idarə edə bilən qadınlar var».

Əkrəm Əylisli:

- «Kişinin də ən gözəl idealı, arzuladığı ən gözəl neməti qadındır. Bizim xalq Şərqdə qadın azadlığına heykəl qoyan ilk və yeganə xalqdır. Bu xalqa yenidən azadlıq meyilləri öyrətmək, köləlik dəymiş kimi təsəvvürlər yaratmaq köhnəlmiş təsəvvürlərdir. Mən Azərbaycan xalqını öz qadınına, anasına, bacısına heykəl qoyan gözəl bir xalq kimi görmək istəyirəm».

Ülkər Abdullayeva:

- «Mən Sizin yerinizə olsaydım, bu qədər optimist olmazdım. Biz yenidən çadraya doğru meyillənməyə başlamışıq. Qızların erkən yaşdan məktəblərdən çıxarılması, onların erkən yaşlarından ərə verilməsi göstərir ki, biz bir növ geriyə doğru addımlamağa başlamışıq...».

***Xədicə İsmayılova, Kamran Mahmudov***

**Yuxarıdakı və digər aktual müzakirələri AzadlıqRadiosunun "İşdən sonra" verilişində dinləyin:**





Sədaqət Vəliyeva

# Gəncədə 500 nəfərin işlədiyi bazar bağlandı

**Gəncə şəhərində dəmiryol ətrafında yerləşən «Nəhəng dağ» MMC-yə məxsus bazar mayın 13-də bağlanıb. 6 ildir ki, bazarda göy-göyərti satan 52 yaşlı Sədaqət Vəliyeva deyir ki, ailə başçıları olmadığından evin dolanışığını göy satmaqla çıxarırmış. Başqa yerdən gəliri yoxdur.**

**«DƏMİRYOLUNU KƏSƏCƏYİK»**

Bazarın digər satıcısı Tahirə Əliyeva da deyir ki, onları başqa yerdə yerləşdirməsələr, dəmiryolunu kəsəcəklər: «Banka pul keçiririk. Malı borcla alırıq. Əvvəl aldatdılar ki, 3 gün təmizlik üçün sanitar günü elan olunur. İndi də deyirlər ki, bağlanır, sökülür. Ya bizi yerlə təmin eləsinlər, ya da dəmiryolunu kəsəcəyik ki, bəlkə bizi də düşünən ola».

Bazarın gözətçisi işləmiş Amil Həsənov da deyir ki, bazarı təmir adıyla bağlayıb tamam sökürlər: «4 ildir bu bazarda gözətçi işləyirəm. Əsgər atasıyam, evimə dövlətdən 1 qəpik gəlir gəlmir. Bu bazarla dolanmışam. Hərə 5-10 qəpik verib. Burada işləyən 500 adam indi nəylə dolanacaq? Deyirlər təmir olunacaq. Bəs niyə sökürlər? Yəqin buranı da satıblar».

**«BAZAR HEÇ BİR SANİTAR-GİGİYENİK NORMALARA CAVAB VERMİR»**

Araşdırmalarımız zamanı məlum oldu ki, bazarın bağlanması təklifini Gəncə Şəhər Gigiyena və Epidemiologiya Mərkəzi verib. Mərkəzin direktor müavini Fazil Nəbiyev deyir ki, bu bazar heç bir sanitar və gigiyenik normalara cavab vermir:"Bazar təmir ediləndən və sanitar normalara cavab verəndən sonra açıla bilər».

***Gülnur Raqifqızı***

# «Amnesty International»: «Hədə-qorxular, təzyiqlər davam edir»


Mübariz Qurbanlı

**«Jurnalistlər və vətəndaş cəmiyyəti fəalları hədə-qorxulara məruz qalıb. Hakimiyyət Bakının mərkəzində etiraz aksiyalar keçirilməsinə qadağa qoymaqda davam edir. Qeyri-hökumət təşkilatları və dini qurumlar qeydiyyatdan keçməkdə çətinliklərlə üzləşirlər». Dünyada insan haqlarının vəziyyəti haqqında «Amnesty International»ın yaydığı hesabatın Azərbaycana aid hissəsində belə deyilir.**

Hesabatda bildirilir ki, jurnalistlərə və vətəndaş cəmiyyəti üzvlərinə qarşı hədə-qorxular, təzyiqlər və zorakılıq aktları cəzasız qalıb. Bu da özünüsenzuranı artırıb. Tənqidi susdurmaq, jurnalistləri həbs, cərimə etmək üçün cinayət və mülki diffamasiya qanunvericiliyindən istifadə olunub. «ATƏT 7 noyabr parlament seçkilərinin dinc keçirildiyini, lakin ölkənin demokratik inkişafında əhəmiyyətli tərəqqi təşkil etmədiyini bildirib. Seçki vaxtı bir neçə jurnalist səslərin sayılması prosesindən zorla kənarlaşdırılıb», - deyə sənəddə qeyd olunur.

Avropa Parlamentinin mayın 12-də qəbul etdiyi qətnamədə xüsusilə gənc fəalların həbsi pislənilir. Qurum Azərbaycan hakimiyyətini qanunsuz ittihamlardan imtina etməyə, ölkədə jurnalistlərin müdafiəsinə təminat verməyə çağırır.

**YAP HƏR İKİ SƏNƏDİ QƏRƏZLİ SAYIR**

Hakim Yeni Azərbaycan Partiyası (YAP) isə hər iki sənədi qərəzli sayır. *YAP icra katibinin müavini Mübariz Qurbanlı AzadlıqRadiosuna deyib ki, Avropa parlamenti qətnamə qəbul edərkən Azərbaycandakı faktları kifayət qədər araşdırmayıb və demokratiya sahəsində əldə edilən uğurlar nəzərə alınmayıb:* «Hesab edirəm ki, sənəddə göstərilən tənqidi məqamlar həqiqəti əks etdirmir, obyektiv deyil. Ona görə ki, Azərbaycan ölkədəki demokratik prosesi daim dərinləşdirir».

**«BUNLARI NECƏ İNKAR ETMƏK OLAR?»**

*Müsavat başqanı İsa Qəmbər isə hakim partiya nümayəndəsindən fərqli olaraq beynəlxalq hesabatların reallığı əks etdirdiyini deyir:* «O qətnaməni tənqid edənlər, onu qərəzli sayanlar oradakı


İsa Qəmbər

müddəaların hər hansı birinin həqiqət olmadığını necə sübut edə bilərlər? O qətnamədəki bütün cümlələr həqiqəti əks etdirir. Jurnalistlər, siyasi fəallar həbsdədir, mitinqlərin qarşısını alırlar, adamları həbs edirlər, vicdan məhbusları var artıq, bunların hansını inkar edə bilərlər?».

**«BAŞ VERƏNLƏR GİZLİN DEYİL, HƏR ŞEY GÖZ QABAĞINDADIR»**


Səidə Qocamanlı

*İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi Bürosunun rəhbəri Səidə Qocamanlı da həm qətnaməni, həm də hesabatı obyektiv sayır:* «Aprel ayında nə qədər adamlar işgəncəyə məruz qalıblar, həbsxanaya atılıblar. Bu ki, gizlin deyil, hamısı göz qabağındadır.»

S. Qocamanlının fikrincə, yaxşı olar ki, Azərbaycan Avropa Şurasının Monitorinq Komitəsinin ölkədə siyasi məhbuslarla bağlı gözlənilən hesabatı üstələmək üçün 2 aprel aksiyasında həbs edilənləri və siyasi məhbusları azadlığa buraxsın.

***Maarif Çingizoğlu***

# Vəkillərə təzyiqlər artır

**Gənc fəal Bəxtiyar Hacıyevin hüquqlarını müdafiə edən vəkil Əlayif Həsənov ailəsinin təzyiqlərə məruz qaldığını bildirir. Mayın 5-də keçirilən məhkəmə iclasında vəkil hakimə deyib ki, Bəxtiyarın hüquqlarını müdafiə etdikdən sonra həyat yoldaşı işdə, oğlu isə təhsil aldığı müəssisədə sıxışdırılır.**

Əlayif Həsənovun həyat yoldaşı Mənzər Aslanova 15 ildən çoxdur ki, Zərdab Rayon Mərkəzi Xəstəxanasında sahə həkimidir. Vəkil iddia edir ki, 10 ildən artıqdır 1,5 okladla pediatr işləyən həyat yoldaşının mayın 2-də 0,5 okladını kəsiblər.

*Zərdab Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Ruslan Nemətov isə sahə həkimi Mənzər Aslanovanın işinin azaldılmasını belə izah edir:* «Həkim çatışmazlığına görə, Mənzər həkim 1,5 oklad işləyirdi. Uşaq həkimi yox idi deyə, ona 0,5 oklad əlavə vermişdik. İndi təyinatla uşaq həkimi gəlib, ona görə də o əlavə 0,5 okladı kəsmişik».

*Əlayif Həsənov isə baş həkimin fikirləri ilə razılaşmır:* «Xəstəxanaya yeni həkim yerləşdirmək zərurəti varsa, bunu o sahəyə aidiyyəti olmadan həmin sahədə 1,5 okladla işləyən həkimlərin hesabına etmək lazımdır. Məsələn, doğum şöbəsinin həkimi qeyri-ixtisas sahəsi üzrə 1,5 okladla çalışır».

**DAHA BİR VƏKİLİ İSƏ POLİS RƏİSİ HƏDƏLƏYİB**

*Mayın 4-də Sumqayıt Şəhər Polis İdarəsinin rəis müavini, Cinayət-Axtarış*


Əlayif Həsənov

*Şöbəsinin rəisi Azər Cahangirov məhkəmənin həyətində jurnalistlərin gözü qarşısında vəkil Anar Qasımovu hədələyib. Cabbar Savalanın həbsinə gənclərin etiraz etməsində onu günahlandırıb:* «Bunları sən təşkil etmisən, sən dövlətçilik əleyhinə işləyirsən, barəndə kompromatlarımız da hazırdır».

Anar Qasımov məhbus jurnalist Eynulla Fətullayevin, AXCP üzvü Cabbar Savalanın hüquqlarını müdafiə edir.

***Nüşabə Fətullayeva***

# Naxçıvanda motosiklet əməliyyatı


Naxçıvan Dəmiryol Vağzalı

**Naxçıvan Muxtar Respublikasında sovet istehsalı olan bütün növ motosikletlərin istismarına qadağa qoyulub. Bu barədə Naxçıvandan olan bəzi motosiklet sürücüləri AzadlıqRadiosuna məlumat veriblər. Onların deməsinə görə, bir neçə gün öncə polislər həyətlərə girərək, motosikletləri müsadirə ediblər.**

Toplanan motosikletlər isə Muxtar Respublika Dövlət Yol Polisi İdarəsinin həyətinə aparılıb. Sürücülər deyir ki, bundan sonra onların özünü də Yol Polisi İdarəsinə çağırılıblar. Onların sözlərinə görə, burada onları qarşılayan Daxili İşlər Naziri Əhməd Əhmədov bildirib ki, motosikletlərin istismarına qoyulan qadağa ilə bağlı göstəriş Naxçıvan Muxtar Respublikası Ali Məclisindən gəlib.

**«KİM MOTOSİKLET SÜRSƏ, ONA ÇOX PİS OLACAQ»**


Sökülən motosikletlərin hissələri

Babək rayon sakini İntiqam Hüseynov:

- «300-350 nəfər idik. Bizi idarənin həyətinə topladılar. Nazir dedi ki, Vasif Talıbovun göstərişinə əsasən, Naxçıvanda motosikletlərin istismarına qadağa qoyulur. Bu gündən etibarən kim motosiklet sürsə, ona çox pis olacaq. Nazir sonra dedi ki, Naxçıvana xaricdən yeni motosikletlər gətirilib, münasib qiymətə kreditlə sizə paylanacaq. Yalnız həmin motosikletləri sürmək mümkün olacaq. Sonra hər kəsi öz motosikletinin yanına düzdülər. Dedilər ki, motosikletin ramasından başqa təkərləri, motorları, kim nə sökə bilir söküb aparsın. Dedilər, eşşəyiniz var, atınız var, aparın hissələri onlara bağlayın. Söküntü işindən sonra yerdə qalan hissələri doğrayıb, maşınlara doldurub «metallom»a apardılar».

Babək rayon sakini İntiqam Hüseynov deyir ki, nazir kompensasiya şəklində onların hərəsinə 100 dollar pul paylasa da, bu, çox az məbləğdir. Onun bildirdiyinə görə, Naxçıvanda satışa çıxarılan xarici istehsalı olan motosikletlərin qiyməti 2000 manatdan baha olduğundan yeni motosiklet almağa imkanı olmayacaq: «Kənd yerində motosikletə çox ehtiyac var. Əkin sahəsinə, digər yerlərə motosikletlə gedirdik. Necə olacaq bilmirəm».

Şərur rayon sakini Vidadi Həsənəliyev isə deyir ki, ailəsinin çörəkpulunu motosikletdən çıxardığından, indi nə edəcəyini bilmir:

**«QOYUNLARI SATIB, MOTOSİKLET ALMIŞDIM»**

- «İki qoyunum var idi. Bir neçə ay öncə qoyunları satıb, motosiklet almışdım. Həmin motosikletlə «xaltura» edirdim. Rayon mərkəzindən kəndlərə un və digər məhsullar daşıyırdım, ailəmin çörəkpulunu çıxarırdım. İndi nə edəcəyimi, ailəmi necə dolandıracağımı bilmirəm».

**NAZİR TELEFONU SÖNDÜRDÜ**

Məsələyə münasibət öyrənmək üçün Naxçıvan Muxtar Respublikası Daxili İşlər naziri Əhməd Əhmədovun özü ilə əlaqə saxladıq. Suallarımızı dinləyən nazir sonradan cavab vermədən telefonu söndürdü.

Naxçıvanlı hüquq müdafiəçisi Elman Abbasov isə bu deyilənləri qanunsuzluq adlandırır: « Naxçıvan qanunlarla yox, qaydalarla idarə olunur. Məmurlar bütün gəlirli sahələri monopoliyaya alıblar».

**«... TALIBOVUN GÖRDÜYÜ İŞLƏRƏ QISQANCLIQDAN İRƏLİ GƏLİR»**

Naxçıvandan seçilən millət vəkili Eldar İbrahimov isə adamların dediklərinin inandırıcı olmadığı qənaətindədir. «O adamların dedikləri hamısı yalandır, böhtandır və mən də o deyilənlərə inanmıram. Vasif Talıbov çox böyük işlər görüb. Buna da qısqanclıq edənlər, paxıllıq edənlər var və ona görə də belə məsələləri deyirlər, yazdırırlar. Mən inanmıram belə şey olsun».

***Yafəz Əkrəmoğlu***

# Cənub bölgəsində AİDS-ə yoluxanların sayı artır

**Lənkəran Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin HIV-AİDS Diaqnostika Laboratoriyasının müdiri Rəməli İbişov deyir ki, cənub bölgəsində bu ilin birinci rübündə HİV-ə yoluxmuş 15 nəfər aşkarlanıb. Bunlardan 3-ü Lənkəran, 8-i Astara, 3-ü Masallı, 1-i isə Cəlilabad rayonunun payına düşür. Ümumilikdə bölgədə 370 nəfər virusa yoluxan qeydiyyatdadır. Son illərdə 90 nəfər virusa yoluxan vəfat edib.**


Rəməli İbişov

«Cənub bölgəsində bir laboratoriya var, o da Lənkəranda yerləşir. Bir ayda 2 min nəfər müayinədən keçirilir. Virusa yoluxanların sayı artır. 2009-cu ildə 25 HİV daşıyıcısı aşkarlanmışdısa, 2010-cu ildə bu rəqəm yarım dəfə artıb». R. İbişov virusa yoluxma hallarının Astarada daha çox müşahidə edildiyini deyir: «Nəzərə alsaq ki, bu virusa yoluxanların əksəriyyəti narkomandır, onda hər şey aydın olar. Astarada narkomanların sayı başqa rayonlara nisbətdə çoxdur».

Bölgədə bu virusa qarşı mübarizənin zəif aparıldığını düşünənlər də var. Adının çəkilməsini istəməyən bir həkimin dediyinə görə, AİDS-ə yoluxanların sayı qat-qat çoxdur. Sadəcə, Azərbaycanda rəsmi statistikada həqiqət gizlədilir: «Bölgədə bir laboratoriya bəs etmir. Bu hesabla 30-40 il lazımdır ki, əhali müayinə olunsun. Lənkəran laboratoriyası köhnə binada, dar otaqlarda yerləşir. Virusa qarşı ciddi mübarizə aparılmır».

***Müstəcəb Məmmədov***

# Европарламент критикует власти Азербайджана



Европарламентарии голосуют, Страсбург, 8 сентября 2010

**Азербайджанские власти подверглись критике Европарламента за аресты молодежных активистов, говорится в пресс-релизе о принятой европарламентариями резолюции о состоянии прав человека в Азербайджане.**

«Через несколько недель после того, как два молодых активиста Джаббар Савалан и Бахтияр Гаджиев использовали Facebook для призывов к антиправительственным протестам в Азербайджане, против них выдвинули обвинения, соответственно, в хранении наркотиков и уклонении от военной службы, что может привести к различным срокам тюремного заключения - до двух с половиной лет .

Депутаты Европарламента в принятой на заседании 12 мая резолюции осуждают оба упомянутых случая и критикуют ухудшение ситуации с правами человека в Азербайджане. Также в резолюции власти Азербайджана осуждаются из-за увеличения количеств преследования и запугивания журналистов и политических активистов. Депутаты Европарламента призывают к освобождению Джаббара Савалана иБахтияра Гаджиева, а также редактора газеты «Реальный Азербайджан» Эйнуллы Фатуллаева.

Европарламент призывает власти Азербайджана отказаться от незаконных обвинений и гарантировать защиту журналистов в стране», - говорится в документе.

"Правительство, на самом деле, не желает уважать права человека, систематически и существенно ограничивая права и свободы людей. Мы выступаем против этого", - заявила на заседании член Европейского парламента от Нидерландов Мариете Шаейк.

Рашад Ширин, один из основателей Азербайджанского национального комитета по вопросам Евроинтеграции, заявил, что вряд ли резолюция будет способствовать большей свободе СМИ в Азербайджане. "Обращения в резолюции по ситуации с журналистами дает, своего рода, моральную поддержку людям, журналистам, а также оказывает некоторое давление на правительство Азербайджана", - говорит Ширин, - "но я не знаю, будет ли это в долгосрочной перспективе способствовать увеличению свободы СМИ в Азербайджане. Будут, вероятно, какие-то реакции, но не продвижение в вопросе свободы средств массовой информации".

Вугар Годжаев, координатор Дома прав человека в Азербайджане, который недавно был закрыт со стороны Министерства юстиции, считает, что «резолюция принята в сложное время для Азербайджана и может повлиять на власти в Баку».

Мариете Шаейк отмечает, что аналогичная резолюция Европейского парламента, принятая в декабре 2009




Рашад Ширин

года, имела влияние в активизации молодежи и верит, что ноавя резолюция также может иметь определенные последствия: " Я получила сотни э-мейлов от молодых людей из Азербайджана, благодаривших меня за принятие этой инициативы (резолюции от декабря 2009 года – ред.). Так что, похоже, что резолюция абсолютно резонирующая".

# "Шенген" ужесточают




**Шенгенское соглашение, которое гарантировало свободу перемещения по Европе, кроме Великобритании и Ирландии, 16 лет считалась знаковым достижениемЕвросоюза. Однако в четверг 15 стран проголосовали за временное восстановление пограничного контроля на жестких условиях в случае резкого роста миграции.**

Они также поддержали восстановление контроля, если какая-либо страна Евросоюза не сможет контролировать свои границы с невходящими в Евросоюз странами.

Меры будут обсуждаться на саммите европейских премьер-министров 24 июня. А еще они должны быть одобрены Европарламентом, где, вероятно, столкнуться с сопротивлением, пишет британская The Telegraph.

Со времен арабских волнений, Франция иИталия выступали за временное восстановление внутренних границ. На их долю приходится большая часть новых североафриканских мигрантов. Италия выдала временные виды на жительство, позволяющие свободно путешествовать по «шенгену», 20 000 мигрантам. В ответ Франция, куда, скорее всего, должны были направиться иммигранты из Туниса, временно перекрыла железную дорогу на границе с Италией.

Германия выступает против облегчения странам Евросоюза нарушение шенгенских правил. Министр иностранных дел Германии Гидо Вестервелле, заявил: «Свобода передвижения – это высшее благо, которым нельзя жертвовать по внутриполитическим причинам».

Дания неожиданно объявила о восстановлении таможенного контроля на границах со Швецией и с Германией, фактически давая понять, что ее соседи плохо справляются с контролем на внешних границах шенгенской зоны, пишет испанская El País. Еврокомиссия сейчас рассматривает это решение. Она пообещала «незамедлительно принять меры», если она решит, что Дания нарушила европейское законодательство.

# Azərbaycan və Ermənistan ordularının müqayisəsi

Böyük Britaniyadakı Beynəlxalq Araşdırmalar İnstitutu «Hərbi Balans 2011» adlı hesabatını yayıb. Sənəddə dünyanın müxtəlif ölkələrinin hərbi imkanları, müdafiə sənayeləri haqqında məlumatlar əksini tapıb. Bu ilin martında yayılmış sənədin Azərbaycan və Ermənistandan bəhs edən hissələrini təqdim edirik. Qeyd edək ki, burada yalnız Ermənistan Respublikasının hərbi imkanları haqqında məlumat verilir. Qarabağdakı erməni qüvvələrinin nələrə sahib olduqları bildirilmir.







**Hesabatın daha geniş mətni ilə AzadliqRadiosu.az saytında tanış ola bilərsiniz.**

# YAP Minsk Qrupu həmsədrlərinə etiraz məktubu göndərib

**Yeni Azərbaycan Partiyası (YAP) Qarabağ münaqişəsinin həlli üçün aparılan danışıqlara vasitəçilik edən ATƏT-in Minsk Qrupunun həmsədrlərinə və ATƏT-in Parlament Assambleyasının sədrinə Azərbaycanın işğal olumuş ərazilərinə xarici ölkələrdən erməni ailələrinin köçürülməsi və məskunlaşdırılması ilə bağlı etiraz məktubu göndərib.**

Məktubda Qırğızıstanda yaşayan 200-dən artıq erməni ailəsinin Dağlıq Qarabağa köçürülməsinə hazırlıq getməsi barədə mətbuatda yayılan məlumatlara diqqət yönəldilib. Bildirilib ki, işğal olunan Azərbaycan ərazilərinin Ermənistanın himayəsi və dəstəyi ilə qanunsuz olaraq məskunlaşdırması məsələsi dəfələrlə BMT- də və digər beynəlxalq təşkilatlarda müzakirə olunub. ATƏT-in bununla bağlı fəaliyyət göstərən faktaraşdırıcı missiyası ötən il yaydığı rəsmi hesabatda işğal altında olan Azərbaycan ərazilərində 15 minədək erməninin məskunlaşdığını bildirib.

YAP etiraz məktubunda bir daha nəzərə çatdırıb ki, erməni tərəfinin bu hərəkəti beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqla yanaşı, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Avropa Şurası və ATƏT-in Parlament Assambleyasının müvafiq qərarlarına ziddir. Azərbaycan xalqı Azərbaycan torpaqlarına kənardan köç edilməsi siyasətini qətiyyətlə rədd edir və onun heç bir hüquqi nəticəsini qəbul etmək niyyətində deyil.

YAP ATƏT-in Minsk Qrupunun həmsədrlərini sülh danışıqlarının nəticələrini heçə endirən və münaqişənin dinc vasitələrlə həllinə dair konstruktiv səylərə mane olan "köçürmə siyasətini" birmənalı şəkildə pisləməyə və onun mənfi nəticələrinin qarşısını vaxtında almaq üçün müvafiq addımlar atmağa çağırıb.

# Tomas de Vaal Qarabağda müharibə gözləyirmi?

## ABŞ-dakı hərbi ekspertlərin Azərbaycan və Ermənistan ordularının gücü haqqında dedikləri


Tomas de Vaal

*Amerikadakı Sülh Uğrunda Karnegi Fondunun əməkdaşı, "Qara bağ" kitabının müəllifi Tomas de Vaalın AzadlıqRadiosuna müsahibəsi*

**- Son bir ildə qoşunların təmas xəttində silahlı insidentlər baş verir, hər iki tərəf itkilər verir. Sizcə, münaqişənin yenidən alovlanması mümkündürmü?**

- Mən düşünmürəm ki, yeni genişmiqyaslı hərbi konfliktin baş verməsi realdır. Çünki müharibənin başlanması qərarını hərbçilər yox, siyasi liderlər verir. Onların isə belə bir müharibənin başlanmasına qərar verəcəyi real deyil. Biz indi, sadəcə, qoşunların təmas xəttində xırda insidentlər müşahidə edirik. Və hər iki tərəf bu insidentlərdən öz siyasi məqsədləri üçün istifadə edilir.

**- Azərbaycan hərbi sənayesini inkişaf etdirir, adi silahlar, zirehli maşınlar istehsal edir. Bütün bunları yeni müharibəyə hazırlıq saymaq olarmı?**

- Məlumdur ki, Azərbaycan son illərdə öz hərbi xərclərini artırır, səhv etmirəmsə, illik hərbi xərclər təxminən 3 milyard dollardır və bu, Ermənistanın nəinki hərbi büdcəsindən, hətta ümumi dövlət büdcəsindən də çoxdur. İndi isə Azərbaycan öz silahlarını da istehsal edir. Amma məncə söhbət Qarabağdan gedirsə, burada söhbət silahların sayından yox, ordunun, orduda xidmət edənlərin qabiliyyətindən gedir. Yalnız silahlarla müharibə etmək mümkün deyil. Burada – Vaşinqtondakı hərbi ekspertlər hesab edirlər ki, Azərbaycan ordusunun silahları onun döyüş qabiliyyətini bir neçə il qabaqlayır.

**- Sizcə, Azərbaycan ordusunun öz silahlarına uyğun döyüş bacarığı səviyyəsinə çatması neçə ilə mümkün ola bilər?**

- Mən hərbi ekspert deyiləm. Bəlkə beş il... Amma məncə burada daha böyük problem var. Sual yaranır ki, yeni müharibə başlasa, Azərbaycan tam mənada hərbi qələbə qazana bilərmi? Hətta


Azərbaycanda hərbi parad. 26 iyun 2008

Azərbaycan itirdiyi torpaqları qaytara bilsə belə, bu, böyük itki hesabına başa gələcək. İstər canlı qüvvə baxımından, istərsə də neft-qaz ifrastrukturuna vurulan mümkün zərbə baxımından.

Qafqazda yeni silah yarışı nəticəsində yarana biləcək mümkün konflikt 90-cı illərin münaqişəsi ilə müqayisədə xeyli dərəcədə dağıdıcı ola və daha çox insan itkisinə səbəb ola bilər. Əlbəttə, Azərbaycan indi daha zəngin ölkədir, amma bu münaqişə onun iqtisadiyyatının sütunu olan neft-qaz infrastrukturu üçün təhlükə ola bilər.

**- Bəs Ermənistan ordusunun imkanlarını necə dəyərləndirirsiniz?**

- Onlar silah təchizatı baxımından Azərbaycan ordusundan geri qalsalar da, döyüş qabiliyyətinin səviyyəsi baxımından güman ki, güclüdürlər. Bir də ki, onlarda hərbi ənənələr sovet dövründə daha güclü olub. Əlbəttə ki, ermənilər Qarabağda xeyli yüksəkliklərə nəzarət edirlər. Onları müdafiə etmək isə xeyli dərəcədə asandır. Amma mən yenə də vurğulamaq istərdim ki, bu konfliktin hərbi yolla həllini real saymıram.

**- Nə baş verməlidir ki, tərəfləri sülh sazişi bağlamağa vadar etsin?**

- Təkan tərəflərin hansındansa gəlməlidir. Hər iki tərəf öz arqumentlərindən əl çəkmək və qarşı tərəfə güzəştə getmək istəmir. Rəhbərlərə belə təzyiq daxildən edilə bilərdi. Amma mən cəmiyyətlərdə kompromisə çağıran ciddi qüvvələr, sülh tələb edən böyük demokratik hərəkatlar görmürəm. Yaxud da ki, təkan xaricdən gələ bilərdi. Amma məsələ burasındadır ki, bu konfliktin həlli heç bir ölkə üçün bir nömrəli prioritet deyil, hətta Rusiya üçün də. Mən dünyanın hansısa güc dövlətinin bu məsələdə tərəflərə təzyiq etdiyini görmürəm. Bu isə o deməkdir ki, status-kvo hələ davam edəcək.

# «Azərbaycan Xankəndinə uçuşlara yol verməyəcək»

**«Xankəndi şəhərində hava limanına qanunsuz uçuşlarla bağlı rəsmi Bakının etirazlarına Ermənistan tərəfi hələ də cavab verməyib».**

Bu barədə «APA»ya açıqlamasında Azərbaycan Dövlət Mülki Aviasiya Administrasiyasının (ADMAA) direktoru Arif Məmmədov məlumat verib. Amma o deyib ki, Azərbaycanın bəyanatlarından sonra ermənilər Xankəndinə mayın 9-na planlaşdırılan uçuşları təxirə salıblar: «Bizim verdiyimiz bəyanatlar qüvvəsində qalır. Ora Azərbaycan ərazisidir və Bakının icazəsi olmadan Xankəndinə uçan təyyarələrə qarşı müvafiq tədbirlər görüləcək».

Ermənistan tərəfi Azərbaycanın Xankəndi şəhərində aeroportu yenidən bərpa edib. Mayın 9-da Yerevandan Xankəndinə ilk uçuşlar planlaşdırılsa da, texniki səbəblər əsas gətirilərək uçuşlar təxirə salınıb. Azərbaycan tərəfi işğal altındakı ərazilərə istənilən uçuşların qarşısının alınacağını, hətta əraziyə uçan təyyarələri məhv edəcəyini bəyan edib.


Ermənistan tərəfi Azərbaycanın Xankəndi şəhərində aeroportu yenidən bərpa edib

# "Qara qızıl" müqavilələrində qaranlıqlar



Azerbaijan – oil bogs in Mashtaga settlement of Baku, 04Mar2009

## Heç kimin tanımadığı neft şirkətləri Azərbaycanda nə işlə məşğuldur?

**Milli Məclisdə növbəti neft müqaviləsinin müzakirəsi zamanı bəlkə də ilk dəfə idi ki, Azərbaycan Dövlət Neft Şirkərinin (SOCAR) özünə tərəfdaş seçdiyi şirkətin imici ilə bağlı bəzi millət vəkillərində əməlli-başlı şübhələr yaranmışdı. Ona görə də SOCAR prezidenti Rövnəq Abdullayev ciddi sorğu-suala tutulmuşdu.**

**MÜQAVİLƏLƏRİN SAYI ÇOXDUR**

Əslində bununla bağlı cəmiyyətin aktiv hissəsində daim bir narahatçılıq olub, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü Koalisiyasının iclaslarında bu məsələlər vaxtaşırı qaldırılıb və lazımi instansiyalara hətta sorğular da göndərilib. Ancaq heç də qaneedici cavablar alınmayıb və ya söz sahibləri vətəndaş cəmiyyətinin sorğularını, sadəcə, sükutla qarşılamağa üstünlük veriblər.

Ümumilikdə götürdükdə isə, Azərbaycan indiyə qədər hasilatın pay bölgüsü (HPB) tipində xarici şirkətlərlə 34 müqavilə imzalayıb. Hazırda onların cəmi 3-ü kəşfiyyat xarakterlidir – "Araz-Alov-Şərq", "Asiman-Şəfəq" və "Abşeron" dəniz blokları. Bunların hamısına da layihəyə dünya şöhrətli şirkətlər - ilk ikisinə Britaniyanın bp, sonuncusuna isə Fransanın "Total" şirkəti – başçılıq edir.

O ki qaldı hasilatla bağlı layihələrə - onların sayı bu günə 13-ə çatır və yalnız 2-də tanınmış şirkət operatordur: "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında hasilat bp-nin rəhbərliyi altında həyata keçirilir. Digər layihələr heç kimin tanımadığı şirkətlərə həvalə edilib: CNPC, Global Energy, Shengli Oil, Noble Sky, BaharEnergy (Dubay).

**"GLOBAL ENERGY"nin NƏYİ QLOBALDIR?**

Yuxarıdakı şirkətlərdən ən aktivi (yataqların sayına görə) Global Energy şirkətidir. O, Vircin adalarının Britaniyaya aid hissəsində qeydə alınıb. Şirkətin Bakı filialının rəhbəri Rusiya vətəndaşı İqor Kirdodadır.

Bu ofşor şirkəti artıq 17 yatağın işlənməsi ilə məşğuldur. Fəqət indiyə qədər nə Global Energy Azerbaijan Ltd.-nin, nə də Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərliyi bir dəfə də olsun bu şirkətin fəaliyyətinə həsr olunmuş mətbuat konfransı keçirib, ictimaiyyət (KİV) və qeyri-hökumət təşkilatları üçün hər hansı hesabat dərc edib. Ona görə, məncə, Azərbaycan hökuməti HPB sazişləri imzalayan şirkətlər qarşısında ciddi tələb qoymalıydı: hər illik fəaliyyətləri ilə bağlı audit edilmiş hesabat hazırlasınlar və internet səhifələrində yerləşdirsinlər.

Onu da qeyd edim ki, hələ ki, bp-dən savayı Azərbaycandakı fəaliyyətləri ilə bağlı digər xarici hasilatçı şirkətlər ictimaiyyətlə məlumatlarını bölüşmürlər.

**1 İLƏ $50 MLN. MƏNFƏƏT... AZ DEYİLMİ?**

2010-cu ilin yekunlarına görə, HPB sazişləri çərçivəsində bp-Azərbaycan şirkətindən başqa, cəmi 3 müqavilə üzrə Neft Fonduna "mənfəət nefti" verilib. Bunların toplam dəyəri isə cəmi-cümlətanı $50 mln olub. Bu çoxdur, ya az? Ancaq ötənilki ixrac qiymətləri ilə götürsək (1 bareli $78,2), onda təqribən 640 min barel və ya 87 min ton neft edir. Məncə, həmin mənfəətlə heç Lökbatandakı "tolkuçka" sahibləri adam arasına çıxmazdılar. Elə isə Abşeron yarımadasındakı yataqların intensiv işlənməsinin dövlətə nə xeyri? Yaxşı olmazdımı ki, onların istismarını 30-40 illiyinə, ümumiyyətlə, dayandıraq və ekoloji vəziyyətin tənzinlənməsinə diqqətimizi yönəldək.

Axı Azərbaycan ildə 50 milyon tondan artıq neft hasil edir və bunun cəmi yarım milyondan bir qədər artığı Abşeron yataqlarının payına düşür. Yarım milyon tonla hökumətimiz görəsən hansı ümummilli problemləri həll etmək niyyətindədir ki, ofşor şirkətlərin təkliflərindən geri çəkilə bilmir?

**Məqalədəki fikirlər müəllifin şəxsi mülahizələridir.**

***İlham Şaban***
***(Neft Araşdırmaları Mərkəzinin rəhbəri)***

# Pul gətirmədiyinə görə şagirdi hədələyiblər



**«Uşaqları müəllim qaldırıb soruşub ki, sən niyə pul gətirməmisən? Mən böyük uşağıma tapşırmışdım ki, müəllim soruşsa, de «atam pul yığmaq olmaz» deyir. Müəllim də deyib ki, səni direktorun yanına, müdirin yanına aparacam. Pul verməyən uşaqları ayaq üstə durğuzmaq, bir dərs boyu onları ayaq üstə saxlamaq- bu kimi məsələlər var. Mən axırı bezdim və qərara gəldim ki, bu məsələyə bir son qoymaq lazımdır».**

Hərbi ekspert Cəsur Sümərinlinin dediyinə görə, övladlarının təhsil aldığı Sabunçu qəsəbəsinin 215 saylı orta məktəbində valideynlərdən mütəmadi olaraq bu və ya digər ad altında pul yığırlar. Sonuncu dəfə isə o, təmir adıyla 5-7 manat yığılmasına etiraz olaraq pul verməkdən imtina edib.

**«ONDA PREZİDENTİN BU SƏRƏNCAMI NƏDİR?»**

**TƏMİR ADI İLƏ ALDADILAN VALİDEYNLƏR**

<u>MƏKTƏB DİREKTORU:</u> **... PULLAR VALİDEYNƏ QAYTARILACAQ**

**Sevinc Hüseynzadənin reportajini AzadliqRadiosu.az saytından oxuyun.**

# Sirli tender qaliblərindən biri - "Boyat"...

## 1 nəfər işçisi olan şirkət 854 manatlıq tenderi qazanıb

**Azərbaycanda şəffaflıq haqda danışan istənilən məmur isə bu sözü işlədəcək: "Tender". Yəni hökumətin sifarişi varsa, elan olunur ki, hansı şirkət daha sərfəli təklif versə, hökumətin büdcə pulları da həmin şirkətə ayrılacaq. Amma reallıq göstərir ki, tenderlərin keçirilməsi heç də avtomatik olaraq şəffaflığı təmin etmir. Bəli, tenderlər mətbuatda elan olunur, amma son qərarın hansı meyarlar əsasında verildiyi haqda məlumat açıqlanmır. Əslində isə, ictimaiyyət üçün daha çox maraq kəsb edən məsələnin məhz bu tərəfidir. İnsanlar əmin olmaq istəyirlər ki, dövlətin pulları fırıldaqçıların əlinə düşmür, qohumbazlıq əsasında paylanmır və ya dövlət məmurlarının şəxsi varlanması üçün istifadə olunmur.**

Məsələn, "Boyat" MMC şirkətinin tender tarixini araşdıranda şəffaflıqdan əsər-əlamət görmədik. Dövlətin bir milyon manata yaxın pulunun həvalə olunduğu bu şirkətin nəinki telefonlarını və ya internet səhifəsini, heç ofisini, poçt ünvanını və ya heç olmasa rəhbərini tapmaq mümkün idi. "Boyat"ın qalıb elan olunduğu tenderlərdən biri Bakı ətrafındakı DRES qəsəbəsində yerləşən A.S.Makarenko adına internat tipli gimnaziyanın ərzaq təchizatı idi. 2011-ci ildə internat tipli bu məktəbin şagirdlərinin yeməyi üçün dövlət büdcəsindən 478.000 manat ayrılıb. Bu məbləği internatda yaşayan şagirdlərin sayına (məktəb şagirdlərinin ancaq bir qismi internatda yaşayır) aldığımız nəticə dövlətin bu sarıdan heç də xəsislik etmədiyini göstərir.

### AMMA UŞAQLAR SONUNCU DƏFƏ NƏ ZAMAN MEYVƏ YEDİKLƏRİNİ XATIRLAMIRLAR

*Bu məktəbin həyətində şagirdlərdən bəziləri ilə ayaqüstü söhbət edib, onlardan məktbədə nə yediklərini soruşduq:*

- Səhər yeməyinə yumurta, yağ, pendir yeyirik, çay içirik. Günortaya sup, qarabaşaq, ya da makaronla üstündə qıyma ət verirlər. Axşama da günorta verilən yeməklər olur. Hərdən şirə də olur.

**- Meyvələr necə, olur?**

- ...Deyə bilmərəm, meyvə yadımda deyil. (Kənardan) Heç verirlər ki! O sualı verməyin... (gülüşürlər.)

### "BOYAT"I GÖRDÜM DEYƏN OLDU, DANIŞAN OLMADI

Məktəbin Təhsil Nazirliyi ilə birlikdə şagirdlərə yemək verilməsinə dair elan etdiyi tenderi "Boyat" MMC şirkəti udub. Bu şirkətin təmsilçiləri ilə söhbət cəhdimiz bir neçə həftə ərzində baş tutmadı. Əslində "Boyat" MMC axtara-axtara şirkətin deyil, Bakıda Mərdəkan qəsəbəsində bir kafenin ünvanına çıxdıq. Bu kafedə isə şirkətin rəhbəri kimi təqdim edilən Elman Həsənov adlı iş adamını tapmaq müşkülə çevrildi. İki həftə ərzində hər dəfə kafedə bizim telefonu alıb Elman Həsənovun özünün bizə zəng edəcəyini desələr də, ondan xəbər çıxmadı.

Elə gimnaziyanın mühasibatlığında da bildirdilər ki, artıq bizim Elman Həsənovu axtardığımızı ona çatdırıblar, özü məsləhət bilsə, zəng vuracaq.




### "BOYAT" ŞİRKƏTİ ELƏ BİR NƏFƏRDƏN İBARƏTDİR?

Əlbəttə, Mərdəkan qəsəbəsində bir kafenin dövlət büdcəsindən 478 000 manat miqdarında tenderi udduğuna inanmaq çətindir. Amma hökumət qurumlarının özlərinin bu şirkət haqqında üzə çıxardıqları bu qəribə faktı təsdiq edir. Bizim əldə etdiyimiz sənədə görə "Boyat" MMC deyilən qurum nə ərzaq istehsalı müəssisələrinə, nə ərzaq saxlamaq üçün anbarlara, nə də heç olmasa, ərzağı başqalarından alıb məktəbə vermək üçün müqavilələrə malik deyil. Yəni bu gimnaziyanın şagirdlərinə indi verilən ərzağın məktəbə necə gəlib çıxdığı bir sirdir.


Bayram Hüseynzadə

### TƏHSİL NAZİRLİYİ BU İŞDƏ SİRLİ HEÇ NƏ GÖRMÜR

Nazirliyin mətbuat xidmətinin rəhbəri Bayram Hüseynzadə deyir ki, "Boyat" bir neçə rəqib şirkətin qatıldığı, başqa dövlət qurumlarının müşahidə etdiyi şəffaf tenderdə qalib gəlib:

- Qanunverciliyin tələblərinə uyğun şəkildə tender keçirilib. Bizdə olan məlumata görə, orada 3 şirkət iştirak edib. Təbii ki, kimsə qalib gəlməli idi. Seçimdə yalnız kimin daha keyfiyyətli və daha sərfəli qiymət təklif etməsi əsas götürülür.

### "BOYAT" ƏLİLLƏRƏ ƏRZAQ ÜÇÜN DƏ 376 MİN MANATLIQ TENDER UDUB

Amma "Boyat"ın sirləri ancaq Makarenko məktəbi ilə bitmir. Hökumətin rəsmi qurumlarından birinin, ümumiyyətlə, mövcudluğunu şübhə altına aldığı bu şirkət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin də iri məbləğdə daha bir tenderini udub. "Boyat" başqa 2 iri şirkətlə birlikdə 2011-ci ildə Müharibə Əlilləri üçün Müalicə Pansionatına ərzaq alınmasına elan edilmiş 376.000 manatlıq tenderi də qazanıb.

Qısası, bircə nəfərdən ibarət "Boyat" MMC bu il 2 nazirliyə birlikdə 1 milyon dollarlıq ərzaq satacaq. Elman Həsənovla əlaqə yaratmaq istəyəndə, Mərdəkandakı kafedən telefon zənginə cavab verən xanım təəccübünü gizlətmirdi:

- Axı Elman müəllim elə də böyük biznesmen deyil, ondan niyə müsahibə almaq istəyirsiniz?

Bizim məntiq çox sadə idi.

**AzadliqRadiosu.az saytının daimi rubrikalarından biri korrupsiya faktlarından bəhs edir.**



# AZƏRBAYCAN-"EUROVİSİON-2011"-in QALİBİ



**Eldar və Nigar dueti 219 xal toplayıb və ən yaxın rəqiblərini xeyli qabaqlayıb. Azərbaycana səs verən ölkələrin siyahısı: Rusiya – 12, Niderland – 6, Kipr – 8, Ukrayna – 10, Finlandiya – 5, İslandiya – 8, Slovakiya – 7, Avstriya – 8, Polşa – 8, İsveç – 3, San-Marino – 10, Türkiyə - 12, İsveçrə - 1, Yunanıstan – 5, Gürcüstan – 8, Fransa – 6, Xorvatiya – 10, Belarus – 6, Rumıniya – 10, Albaniya – 8, Malta – 12, Portuqaliya – 8, Macarıstan – 7, Litva – 8, Bosniya və Hersoqovina – 8, İsrail – 4, Estoniya – 8, Belçika – 3, Latviya – 3.**

Azərbaycan isə ən yüksək xalı Ukraynaya verib. Gürcüstan Azərbaycandan 10, Yunanıstan isə 8 xal aldı.

Beləliklə, gələn il müsabiqəyə ev sahibliyini Bakı edəcək.

**EUROVİSİON-2011-in QALİBLƏRİNİN MƏTBUAT KONFRANSI**

"Eurovision-2011"-in qalibləri mətbuat konfransını "Ey əziz anam, Azərbaycan!" mahnısı ilə açdılar. "Musiqi xalqları yaxınlaşdırır",- deyə Eldar Ermənistanın finala çıxmamasına işarə kimi Azərbaycan jurnalistlərindən verilən suala qısa cavab verdi.

Avstraliya radiosunun jurnalisti maraqlandı ki, Avstraliyadan Bakıya necə gəlmək olar. Və sual etdi:

- Gələn il Bakı Eurovisionu Düsseldorfdakı kimi yaxşı təşkil edə biləcəkmi?

Suala cavab verən Eldar dedi:

- Gəlin Azərbaycana, Bakıya və özünüz görəcəksiniz ki, bizim xalq buna necə ciddi yanaşır və Azərbaycan Eurovision üçün nələr edəcək. Mən əminəm ki, sizin çox xoşunuza gələcək.

Nigara sual verildi ki, Londonda yaşamasının onun uğuruna təsiri olubmu?

- Əlbəttə, - deyə Nigar cavab verdi, - mən evdar qadın idim, Eurovision musabiqəsinə qatıldım, indi də burdayam.

**BAKIDA DA AZADLIQ MEYDANI DOLDU...**

Azərbaycanın paytaxtında da sakinlər "Eurovision 2011"-də qələbəni qeyd etmək üçün Azadlıq meydanına, Bakının küçələrinə axışıblar. Sakinlər Azərbaycan bayraqları ilə paytaxtın küçələrini dolaşıb, "Azərbaycan!" şüarları səsləndiriblər. Bakı sakinlərinin qələbə sevincindən müxbirlərimizin çəkdikləri video və fotolara bu mətnin sağındakı MULTİMEDİA sütununda baxa bilərsiniz.



# Ramzan Kadırovun komandası dünya futbol ulduzlarını məğlub etdi



**Mayın 11-i Çeçenistan paytaxtı Qroznıdakı Əhməd Kadırov adına yeni stadionun təntənəli açılışı keçirilib. Stadionun açılış mərasimi ilə bağlı Çeçenistan prezidenti Ramzan Kadırovun kapitanı olduğu «Kavkaz» komandası dünya ulduzlarından ibarət yığmanı 5: 2 hesabı ilə məğlub edib.**

**OYUN PLANLAŞDIRILDIĞINDAN 3 SAAT GEC BAŞLAYIB**

Futbola azarkeşlik etmək üçün üzərində Ramzan Kadırovun şəkilləri olan minlərlə gəncin stadiona gətirildiyi deyilir. Oyun başlamamışdan öncə stadionda konsert keçirilib. Yerli və xarici müğənnilər rus, ingilis və çeçen dillərində mahnılar oxuyublar.

Dieqo Maradonanın kapitanı olduğu dünya yığmasında Luis Fiqo, McManaman, Ivan Zamorano, Fabienne Bartez, Franko Barezi, Alessandro Costacurta, Reberto Ayala, Jean-Pierre Papin kimi keçmiş futbol ulduzları meydana çıxıblar.

Oyunda ilk qolu 13-cü dəqiqədə qonaqlar vurub. İvan Zamorano fərqlənib.

**ULDUZLARIN SÖNMƏSİ**

Beş dəqiqə sonra «Kavkaz» qapısından ikinci topu buraxıb. Qolun müəllifi Dieqo Maradona olub. Bundan sonra «ulduzlar», necə deyərlər, sönməyə başlayıblar.

Qapısından buraxılan 2 qola «Kavkaz» beş topla cavab verib. Anzor İsmayılov, Timur Cəbrailov, Andrey Fedkov hərəyə bir qol vurublar. Zaur Sadaev isə iki dəfə fərqlənib.

***Turxan Kərimov***

# «Proses» çap edildi




**Azərbaycanda siyasi proseslər və 2010-cu il parlament seçkilərindən bəhs edən «Proses» adlı foto-kitab nəşr olunub. Kitab Azad Fotoreportyorlar Birliyinin təşkilatçılığı ilə nəşr edilib. «Proses» Azərbaycanın müstəqilliyi dövründə ictimai, siyasi həyatda yaşanan hadisələri özündə birləşdirən ilk foto-kitabdır.**

Kitabda Əhməd Muxtar, Abbas Atilay və Turxan Kərimovun yerli və beynəlxalq mediada dərc olunan fotoları yer alıb. Kitabın dizayn və tərtibatı Hacı Hacıyevə məxsusdur. Foto-kitabda vətəndaş jurnalistikasına aid fotolardan da istifadə edilib. Fotolara Azərbaycan və ingilis dillərində yazılmış altyazılarını Xədicə İsmayılova yazıb. Kitabın ön sözünün müəllifi isə Məmməd Süleymanovdur.

Bu foto-kitabın nəşr xərcləri unikal formada təşkil olunub. Belə ki, maliyyə çətinliyi çəkən fotoqraflar foto- kitabın nəşri üçün sosial şəbəkələrdə «foto-kitaba öncədən sifarişvermə» kampaniyası keçiriblər. Yəni foto-kitab hələ nəşrə getmədən insanlar tərəfindən satın alınıb.

# Dünya tarixində ən çox satılmış bədii əsərlər




**Əlbəttə, bədii əsərlər oxucu sayına görə "Bibliya",yaxud "Quran"la yarışa bilməz. Bu iki dini kitabın indiyəcən satılan, pulsuz paylanan nüsxə sayının milyardlarla olduğu güman edilir (əlbəttə, dəqiq statistika mövcud olmasa da).**

Amma statistikaya görə, məşhur ingilis yazıçısı Çarlz Dikkens-in 1859-cu ildə çap edilən "İki şəhərin hekayəti" adlı tarixi romanının dünyada indiyəcən 200 milyondan artıq nüsxəsi çap edilib. Bu, dünya tarixində ən çox satılan roman sayılır. Əsərdəki hadisələr 1789-cu ilin Fransa inqilabı ərəfəsində və inqilab dövründə iki şəhərdə-Paris və Londonda cərəyan edir.

Daha sonra ingilis yazıçı Con Ronald Ruel Tolkinin (1892-1973) fentezi janrında yazılmış"Üzüklərin hökmranı" ("Lord of the Rings") trilogiyası gəlir. Bu əsərin indiyəcən 150 milyondan çox nüsxəsi satılıb. Dünya tarixində ən çox satılan bədii əsərlər reytinqində üçüncü pillədə də Tolkinin uşaqlar üçün fentezi janrında yazdığı "Hobbit" povesti qərarlaşıb.

100 milyon nüsxədən artıq satılmış bədii əsərlər sırasında 4 klassik Çin romanı arasında ən məşhuru olan "Qırmızı malikanədə yuxu" da var. Əsərin ilk 80 fəslini Tsao Syuetsin yazıb. Həmin fəsillər "Daş haqda qeydlər" adı altında yazarın ölümündən az əvvəl - 1763-cü ildə çap edilib. Təxminən 30 il sonra Qao adlı bir şəxs əsərin daha 40 fəslini yazaraq çap edib.

"Detektiv kraliçası" Aqata Kristinin (1890-1976) ilk adı "On zənci balası" romanı indiyəcən 100 milyon tirajla satılıb. Aqata Kristi əsərləri indiyəcən dünyada ən böyük tirajla satılmış müəllifdir (ümumilikdə 2 milyard nüsxə). Tiraj sayı 50-100 milyon arasında olan əsərlər arasında isə

Antuan de Sent Ekzüperinin "Balaca şahzadə" (80 milyon),

Den Braunun "Da Vinçi kodu" (80 milyon),

Paolo Koelyonun "Kimyagər" (65 milyon),

Vladimir Nabokovun "Lolita" (50 milyon),

Umberto Ekonun "Qızılgülün adı" (50 milyon) əsərləri də var.

İngilis yazıçısı Coan Roulinqin Harri Potter haqda 7 romanı isə dünyada ən çox satılmış silsilə roman sayılır. Harri Potter haqda 7 kitab ümumilikdə dünyada 400 milyon nüsxədən artıq satılıb.

***Rövşən Qənbərov***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**«Babil Qülləsi»ndə Azərbaycan kitabları**



**H.Əliyev mükafatına Mövlud Süleymanlının namizədliyi verilibmiş**



Afaq Məsud:**"Özümü sirli maddə almağa çalışan kimyagər kimi hiss edirəm"**



**Emin Milli hekayələr yazmağa başladı**



Məmməd İsmayıl: **"Heydər Əliyevin üzünə dedim ki..."**

# "Ərəb üsyanları başlayandan bəri ən qəddar repressiya"


Prezident Bəşər Əsəd

**Suriyadakı hüquq-müdafiə qrupları deyirlər ki, ölkənin təhlükəsizlik qüvvələri axır günlərdə qəddar repressiyalara başlayıblar. Onların bildirdiyinə görə, Ərəb ölkələrində üsyanlar başlayandan bəri belə repressiyalar görünməyib.**

Mayın 11-də Suriya ordusu ölkənin üçüncü böyük şəhəri olan Homsda üsyanı yatırtmaq üçün hətta tanklardan da istifadə edib. Şahidlərin dediyinə görə, təhlükəsizlik qüvvələrinin qara paltarlı əməkdaşları və mülki geyimli polislərin əllərində hökumət əleyhinə nümayişlərdə iştirak edənlərin siyahısı var və onlar ev-ev gəzib siyahıdakı şəxsləri həbs edirlər.

Mayın 11-nə keçən gecə isə ölkənin ikinci böyük şəhəri olan Hələbdə minlərlə tələbə repressiyalara baxmayaraq küçələrə çıxaraq hökumətə qarşı şüarlar səsləndiriblər. Amma təhlükəsizlik qüvvələri və əlidəyənəkli rejim tərəfdarlarının təzyiqi nəticəsində tələbələrin aksiyası dağıdılıb.

Ümumilikdə Homsa hücumda və başqa şəhərlərdəki zorakılıqlarda son günlər 19 nəfər öldürülüb. Londonda yaşayan suriyalı hüquq müdafiəçisi Rami Əbdül Rəhman deyir ki, təhlükəsizlik qüvvələri Banias şəhərində də kütləvi həbslər aparırlar. Prezident Əsədin hökuməti də etiraf edir ki, həbslər aparılır. Amma hökumət özünə haqq qazandırır. Üsyançıları "İslam təməlçiləri və terrorçu qruplar" kimi təqdim edir. Hüquq müdafiəçiləri bildirirlər ki, martın ortalarında Suriyada üsyan başlanandan bəri 600 nəfərdən çox adam öldürülüb. 8 min nəfər isə həbs edilib. Etirazçılar siyasi məhbusların azadlığa buraxılmasını, ədalətli seçkilərin keçirilmıəsini, Əsədin Baas Partiyasının cəmiyyətdə hegemonluğuna son qoyulması üçün Konstitusiyaya dəyişikliklər edilməsini istəyirlər.

Bu arada beynəlxalq ictimaiyyət Suriya hökumətini aksiyaçılara qarşı repressiyalara son qoymağa çağırır. BMT-nin baş katibi Pan Ki Mun deyib ki, Əsəd hökuməti xalqın səsinə qulaq asmalı, islahatlar aparmalıdır. O həmçinin dinc nümayişçilərə qarşı ifrat gücdən istifadəyə son qoymağa çağırıb:

"Biz Suriya hökumətinə təzyiqləri davam etdiririk ki, BMT Deraa və zorakılığın baş verdiyi başqa şəhərlərə gedə, vəziyyəti yerində qiymətləndirə, humanitar yardımla bağlı plan hazırlaya bulsin." Avropa Birliyinin xarici siyasət idarəsinin rəhbəri Catherine Ashton isə deyib ki, onlar Suriyaya qarşı tətbiq edilmiş sanksiyalara prezident Əsədin də adını daxil edə bilərlər.

Mayın 10-da Avropa Birliyi 13 Suriya rəsmisinə qarşı sanksiya tətbiq edib. Onlar arasında prezidentin qardaşı da var. Onların Avropaya səfərləri qadağan edilib, hesabları dondurulub. Bu qadağalara Suriyaya silah icracına icazə verilməməsi də daxiıdi. Ashton deyib ki, onlar bu həftənin axırı qara siyahını bir də nəzərdən keçirəcək, Fransanın təklifinə baxacaqlar.

**Fransa Əsədin də qara siyahıya salınmasını tələb edir.**

**AzadliqRadiosu.az saytının daimi rubrikalarından biri korrupsiya faktlarından bəhs edir.**




# Dubayda azan səsindən şikayət edirlər



**Dubay hökuməti azan səsinin yüksəklik həddini yoxlamağa başlayacaq. Birləşmiş Ərəb Əmirliklərinin The National adlı internet saytı yazır ki, son vaxtlar yerli əhali arasındakı xarici ölkə vətəndaşları tərəfindən azan səsinin həddən artıq səs-küy yaratması haqda gələn şikayətlərin sayı artıb. Odur ki, hökumət nümayəndələri minarələrdəki səsgücləndiricilərin normalara uyğun olub-olmadığını yoxlayacaq.**

Dubayın baş müftisi Muhammed Al-Kobays deyib ki, məscidlərin qonşuluğunda yaşayan və yüksək azan səsindən narahat olan insanlar birbaşa idarəyə müraciət etməlidirlər: "Azan namaz vaxtının başlandığını xəbərdar etməlidir, insanlara narahatlıq yaratmamalıdır".

"Azan səsi müsəlmana onun ən vacib əməli – namaza çağırış olduğuna görə, səsi kifayət qədər yüksək olmalıdır",-deyə baş müfti bildirib.

Dubayda AL-Vahab məscidinin yanında yaşayan 54 yaşlı İran vətəndaşı Ansiya Alinnaseri şikayətlənir ki, səhər 4.30-da səslənən yüksək azan səsi onun 3 nəvəsinin yatmasına mane olur: "Onlar hər səhər ağlaya-ağlaya yuxudan dururlar".

5 il əvvəl Dubaya işləməyə gələn rus Alla Burlyayeva isə hesab edir ki, hər şeyə öyrəşmək mümkündür. "Bu, yaşadığımız ölkənin mədəniyyətinin bir hissəsidir və bundan hiddətlənmək yersizdir",-deyə Burlyayeva bildirib.

Al-Vahab məscidinin axundu isə şəhər sakinlərini bir qədər tolerant olmağa çağırıb: "Biz də Midousda yaşayan avropalıların hər səhər itlərini gəzintiyə çıxarmasını bəyənmirik, çünki bu heyvan İslamda təmiz hesab olunmur. Amma biz onların bu hüququna qarşı çıxmırıq, narazılığımızı bildirmirik. Biz də hansısa ölkəyə gedəndə, oranın qayda-qanunlarına riayət edirik",-deyə din xadimi fikrini tamamlayıb.

# «Facebook» Azərbaycanda banan və xurmaya boykot deyir?



**Bananın 1 kiloqramı ölkəyə 25-30 sentə gəlib çıxır, amma 2-2.5 manata satılır**

**«Facebook» sosial şəbəkəsində gənc fəallar Azərbaycanda monopoliyaya qarşı mübarizə kampaniyasına başlayıblar. İlk olaraq banan və xurma monopoliyası hədəf götürülüb. Sosial şəbəkədə kampaniyanı ilk başlayan AXCP sədrinin müşaviri Asif Yusifli deyir ki, onlar əvvəlcə Nəqliyyat Nazirliyinin Azərbaycana gətirdiyi «London» taksilərini boykot etməyi qərara alıblar. Amma həmin taksilərin xəttə buraxılması ləngidiyindən bu işi hələlik dayandırıblar.**

**BANAN VƏ XURMA TƏSADÜFƏN SEÇİLMƏYİB**

A.Yusifli deyir ki, banan və xurma monopoliyasına qarşı mübarizəni təsadüfi başlamayıblar: «Bunlar çox vacib tələbat malları deyil. Belə deyək, kartof-soğan da monopoliyadadır, amma camaata desək ki, kartof, soğan almayın, bəlkə də çox adam buna əməl etməyəcək. Xurma, banan almamaq isə mümkündür. Bu məhsullar adamlar üçün həyati əhəmiyyət kəsb eləmir. Fakt odur ki, bu məhsullar Azərbaycanda 10 qat artıq qiymətə satılır. Bananın 1 kiloqramı ölkəyə 25-30 sentə gəlib çıxır, amma 2-2.5 manata satılır».

**NÖVBƏDƏ RESTORANLAR, ŞADLIQ EVLƏRİ VƏ...**

A. Yusifli deyir ki, kampaniya bir həftəyə yaxındır başlayıb və sosial şəbəkədə buna xeyli dəstək müşahidə olunur. Onlar növbəti addım kimi məmur inhisarında olan meyvə şirələri, şəkər, şəkər tozu, siqaret, restoran və şadlıq evləri monopoliyasına qarşı kampaniya aparacaqlar:

«Biz bu kampaniya ilə məmurların inhisarında olan mal və xidmətlərin qiymətində 10-20 faiz ucuzlaşmaya nail olsaq, bu, oliqarx məmurlar üçün böyük zərbə olar».

**BİR VAXTLAR FƏRHAD ƏLİYEV DƏ MONOPOLİYADAN DANIŞMIŞDI**

Hazırda həbsdə olan sabiq İqtisadi İnkişaf naziri Fərhad Əliyev də nazir işlədiyi vaxt «Hamı yerli mal alsın, xeyir vətənə qalsın!» şüarı ilə korrupsiyaya, monopoliyaya qarşı mübarizəyə başlamışdı. Sabiq nazir hətta bəzi mallarda yaranan gömrüyə qədər və gömrükdən sonrakı kəskin qiymət fərqini açıqlamışdı. Sabiq nazir məhkəmədəki son çıxışında hər il dövlət büdcəsindən azı 3 milyard dollar vəsaitin yayındığını bildirmişdi.

Ölkədə inhisarçılığın mövcudluğu barədə hökumət rəsmiləri, elə prezident İlham Əliyev də bəyanatlar səsləndiriblər. A. Yusifli də deyir ki, onların başladığı bu kampaniya hökumətin inhisarçılığa qarşı mübarizəsinə dəstək hesab oluna bilər.

***Maarif Çingizoğlu***

# AzadlıqRadiosunda verilişlər:

<u>*Unutmayın:*</u> Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

## Daimi rubrikalar




# “Simsiz teleqraf”

## NƏ DAYAN, NƏ GET




07.05.2011. YÜKLƏYİB: HAYAT

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

HotBird 13$^{0}$E

**Kanalın adı**
Radio Free Europe/Radio Liberty
**Pol:** V
**Tezlik:** 12.226 Ghz
**Sürət:** 27.500 MS/s

24 saat

42$^{0}$ E

**Kanalın adı**
Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s

## Azadlıq Radiosu rus dilində

## Radioazadlyg.org




## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**“Fərqli düşüncə” jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, “Qanun” mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz